**AZƏRBAYCAN RESPUBLİKASI**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№310/1** **3 may 2019-cu il**

**"Azərbaycan Respublikası Auditorlar Palatasının Apellyasiya Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə**

"Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 aprel tarixli 1910 nömrəli Fərmanı ilə təsdiq edilmiş, yeni redaksiyada verilmiş "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının "Nümunəvi Əsasnamə"sinə uyğun olaraq Auditorlar Palatasının Şəffaflığın təminatı və korrupsiyaya qarşı mübarizə idarəsinin rəisi M.Abbasov tərəfindən hazırlanmış "Azərbaycan Respublikası Auditorlar Palatasının Apellyasiya Şurası haqqında" Əsasnamənin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikası Auditorlar Palatasının Apellyasiya Şurası haqqında" Əsasnamə təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatasının rəhbərliyinə tapşırılsın ki, on gün müddətində bu Əsasnaməyə uyğun olaraq Auditorlar Palatasının Apellyasiya Şurasının yaradılması təmin edilsin.
3. Auditorlar Palatası sədrinin "Azərbaycan Respublikası Auditorlar Palatasının Apellyasiya Şurasının yaradılması haqqında" 2018-ci il 28 iyun tarixli 1/37 nömrəli sərəncamı qüvvədən düşmüş hesab edilsin.
4. Bu qərarın və "Azərbaycan Respublikası Auditorlar Palatasının Apellyasiya Şurası haqqında" Əsasnamənin mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**